Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi



# Uşaq gözü, şair sözü

**Şair Ələmdar Quluzadənin 65 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış**

**metodik vəsait**

**Bakı -2017**

**Tərtibçi:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova** Əməkdar Mədəniyyət işçisi

**Ə. Quluzadə-65. "Uşaq gözü, şair sözü":** metodik vəsait / tərt.ed. K. Səmədzadə; red. S. Məlikzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-22 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

Hərtərəfli dünyagörşə malik, milli düşüncəli yeni nəsil yetişdirilməsində uşaq ədəbiyyatının böyük rolu var. Buna görə uşaq ədəbiyyatının ideya-bədii səviyyəsinin yüksəldilməsinə həmişə qayğı göstərilməlidir.

Uşaqlar üçün yazılan əsərlər müasir dövrün nəbzini tutmalı, bu yazılarda coşqun və qaynar həyatımız öz bədii əksini tapmalıdır. Bundan əlavə, həmin əsərlərin yalnız formasına yox, həm də məzmun və ideya saflığına fikir verilməlidir. Bu amillər hər zaman uşaq yazıçılarını düşündürən problemlərdir.

Bu gün uşaq ədəbiyyatı sahəsində qələmini sınayan şair və yazıçılarımız az deyil. Belə şairlərdən biri də bu il 65 yaşı tamam olan Ələmdar Quluzadədir.

Uşaq ədəbiyyatı Ə. Quluzadə yaradıcılığının aparıcı qollarından biridir. Bu da təsadüfi deyil. Ələmdar Quluzadə uzun illərdir ki, dövlət radiosunun uşaq verilişləri redaksiyasının baş redaktoru kimi səmərəli fəaliyyət göstərir.

Təbiət, məhəbbət, insan, narahat dünya, qanlı-qadalı müharibələr, Qarabağ ağrıları mövzularında nəşr etdirdiyi kitablarla oxucu məhəbbəti qazanan, onların marağına səbəb olan şair uşaqların da sevimlisidir. Çünki onun uşaqlar üşün qələmə aldığı şeir, poema və nağıllar səmimiliyi, dilinin rəvanlığı ilə seçilir. Buna görə də Ələmdar Quluzadənin ruhuna yumor qatılan şeirləri məktəblilər tərəfindən həvəslə oxunur və tez əzbərlənir.

Ələmdar Quluzadə  yaradıcılığının oxucular arasında geniş təbliği məqsədilə hazırladığımız metodiki vəsaiti oxucuların və kitabxanaçıların ixtiyarına veririk. Ümidvarıq

ki, vəsait kitabxanaçılar və poeziyasevərlər üçün faydalı olacaq.

## Həyat və yaradıcılığı

O, hələ altıncı sinifdə oxuyarkən uşaqlara xas olan bir tərzdə hələ cilalanmamış misraları bir-birinin ardınca düzüb, özünü nə vaxtsa ədəbi mühitdə, poetik aləmdə görmək arzusu ilə yaşayıb. İllər ötdükcə gələcək şairin poeziyaya olan münasibəti daha da ciddiləşib. Sonra qəzet və jurnallarda verilmiş ürəyinə yatan şeirləri əzbərləyib, öz yazdıqlarını da müəllim və şagird yoldaşlarına oxuyub. Özünün qeyd etdiyi kimi, daha çox böyük şairimiz Mirzə Ələkbər Sabirin şeirlərinin vurğunu olub, onun əsərlərindən təsirlənib, bəhrələnib. Beləliklə o, "Xocalı məktəbinin şairi" kimi tanınıb və ədəbi məclislərin əvəzsiz iştirakçısına çevrilib.  Dəfələrlə Xocalı Mədəniyyət evində öz şeirləri ilə çıxış edərək poeziya həvəskarlarının sürəkli alqışlarını qazanıb.

Ələmdar Quluzadə 1952-ci ildə Əsgəran rayonunun Xocalı qəsəbəsində anadan  olub. 1973-cü ildə N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xankəndi filialında Azərbaycan dili və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. Bir müddət Xocalı qəsəbə orta və Xankəndindəki fəhlə-gənclər məktəblərində müəllim, sonralar Dağlıq Qarabağ Radio Verilişləri Komitəsinin Azərbaycan verilişləri redaksiyasında xüsusi müxbir işləyib. Hazırda Azərbaycan Dövlət Radiosunda Uşaq verlişləri redaksiyasının baş redaktorudur.

Şairin şeirləri əvvəlcə "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində və "Ulduz" jurnalında dərc edilib. "Dağların yaddaşı" adlı  ilk şeirlər

kitabı 1976-cı ildə nəşr olunub. “Dağların yaddaşı”ndan sonra Ələmdar Quluzadənin bir-birinin ardınca xeyli maraqlı kitabı nəşr edilib:“Tumurcuqlar”, “Beş qitənin uşaqları”, “Şəhid şəhər”, “Alay komandiri”, “Ömür-gün qabaqdadır”, “İsti ocaq”, “Mənə söz verin”, “Məhləmizin uşaqları”, “Məni yoldan eləmə”, “Qürbətə düşən daş”, “Dilotu”, “Ürəyindən keçəydim”, “Ətirşah ətri”, “Boğça”, “Qadan mənə Qarabağ”.

Şairin qələmi illərdir ki, məhsuldar işləyir. Neçə-neçə yurd həsrətli şeirlər, poemalar onun qələminin məhsuludur. Bu kitablar şairi ədəbi mühitdə layiqincə tanıdıb və onu oxucuları sevdirib.

Ə. Quluzadənin çoxsahəli yaradıcılığında uşaq ədəbiyyatının özünəməxsus yeri var. Onun uşaq seirləri səmimiliyi, dilinin rəvanlığı ilə diqqəti cəlb edir. Təbiətə, folklora, xalq yaradıcılığina, insanların psixologiyasına yaxından bələd olan şairin uşaqlar üçün qələmə aldığı şeir və nağıllarda bu xüsusiyyət özünü daha aydın göstərir.

Ələmdar Quluzadənin “Qürbətə düşən daş” kitabında vətənə, xalqa, əməyə, anaya, dosta sevgi mövzularında yazılmış nağıllar ( “Papaqçı”, “Dəmirçi Daşdəmir”, “Bar ağacı”, “Bənövşə”, “Yuva”, “Kiçik qardaş”, “Nökər alim”, “Göyərçin”) geniş yer alib. Bu kitabla müəliif özünü nəsrdə sınayıb, həm də uşaqlara haqq-ədalət, vətənpərvərlik, mərdlik, qorxmazlıq, cəsurluq, barədə düşüncələrini çatdırıb.

Onun nağılları ilə yanaşı, şeirləri, poemaları, pyesləri də bütün yaş qrup oxucularda maraq doğurmaqla yanaşı, onları vətənpərvər ruhda tərbiyə edir.

Öncə qeyd etdiyimiz kimi, şairiin bu il yubiley yaşıdır. Bu münasibətlə respublikamızın təhsil ocaqlarinda, bağçalarda, lisey və gimnaziyalarda, kitabxanalarda şairin

65 illik yubileyi ilə bağlı tədbirlər keçirilir. Şairin yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da tədbirlər planı hazırlanıb.

## Yubiley tədbirləri

İstedadlı şair, təcrübəli jurnalist və gözəl insan Ələmdar Quluzadənin yubileyi münasibətlə kitab sərgisi kitabxananın oxu zalında təşkil olunur. Kitab sərgisi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Uşaqların sevimlisi şair Ələmdar Quluzadə", "Ələmdar Quluzadə - 65", "Uşaqların ürəyindən keçəydim", "Uşaqların yaxın dostu Ələmdar Quluzadə" və s.

Sərginin nümunəsini veririk

1. Başlıq: **"Ələmdar Quluzadə - 65"**
2. Şairin kitablarının nümayişi.
3. Tanınmış yazarların Ələmdar Quluzadə haqqında söylədikləri.
4. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.
5. Şeir parçası.

**Qüdrətimdi, qeyrətimdi,**
**Qürurumdu, qiymətimdi,**
**Yer üzündə qismətimdi**
**Ata yurdum, ana dilim.**

## Tanınmış yazarların Ələmdar Quluzadə haqqında söylədikləri

1. İstedadlı şair Ələmdar Quluzadə bu gün yorulmadan yazıb yaradır, həm ümumi və həm də milli uşaq ədəbiyyatımızı öz yeni, orijinal əsərləri ilə zənginləşdirir. Uzun yaradıcılıq yolu keçməsinə

baxmayaraq, yorulmur, müdrik, həmişəcavan bir poeziya ustası kimi yeni-yeni uğurlar qazanır.

**Füzuli Əsgərli,**
**ədəbiyyatşünas-tədqiqatçı**

2. 1976-ci ildə işıq üzü görmüş “Dağların yaddaşı” kitabından son zamanlar çapdan çıxan “Ətirşah ətri” kitabı və “Qürbətdən qürbətə düşən daş” əsərinə qədər keçdiyi yola baxanda görürük ki, onun potensialı hələ içəridədir.

**Füzuli Əsgərli,**
**ədəbiyyatşünas-tədqiqatçı**

3. Ələmdar Quluzadənin yaradıcılığında Azərbaycan xalqının ən böyük dərdi olan Qarabağ itkisi, bu mövzuyla bağlı motivlər əsas yer tutur. Onun “Salam Xocalı dərdim” poeması bu baxımdan xüsusilə təsirli əsərdir.

**Rəşad Məcid,**
**yazıçı**

4. Ələmdar Quluzadənin uşaq şeirləri səmimiliyi, dilinin rəvanlığı ilə diqqəti cəlb edir. Şairin folkloru, kənd həyatını, təbiət hadisələrini yaxşı bilməsi, həssas müşahidələri, predmetə uşaq gözü ilə baxmaq bacarığı onun şeirlərinin uğurunu təmin edən başlıca cəhətlər kimi yadda qalır.

**Rafiq Yusifoğlu,**
**şair-yazıçı, professor**

5. Ələmdar Quluzadə sizin üçün şeir yazanda çalışır ki, əhvalatlar yumoristik olsun. Siz bu əsərləri oxuyanda qaş-qabağınızı tökməyəsiniz. Üzünüzdə təbəssüm, gözünüzdə sevinc yaşları olsun.

**Zahid Xəlil,**
**filologiya elmləri doktoru, professor**

6. O, ədəbiyyata gəlişi ilə yaşca özündən böyük nüfuzlu qələm sahiblərinin diqqətini cəlb etmişdir. Mənim fikrimcə Ə.Quluzadənin Qarabağla bağlı qələmə aldığı əsərlərini fərqli bir “Qarabağnamə” adlandırmaq olar.

**Vaqif Yusifli,**
**tənqidçı**

7. Hər bir əsərin özünəməxsus rəngi var, dadı var. Ə. Quluzadə əsərlərinin isə səsi var, hayqırtısı var. Mən onun yaradıcılığını göy qurşağına bənzədirəm. Hər rəngin öz dərdi, sızıltısı var. Ortadan keçən çəhrayı rəng isə uşaqların sevincidir.

**Nüşabə Məmmədli,**
**yazıçı**

## Kitablarının nümayişi







Əlәmdar Quluzadә
Bulaq suyu


ƏLƏMDAR QULUZADƏ
NAVALÇA


ƏLƏMDAR QULUZADƏ
DİLOTU


ƏLƏMDAR QULUZADƏ
ƏTİRŞAH ƏTRİ










Ələmdar Quluzadənin yubileyi ilə bağlı kitabxanada keçirilməli olan maraqlı tədbirlərdən biri də kitab icmalıdır. Şairin 2010-cu ildə “Ozan” nəşriyyatı tərəfindən nəşr olunmuş “Ürəyindən keçəydim” adlı kitabının icmalı haqqında əvvəlcə hazırlıq görülür. Kitabxanaçı tədbirə şair və yazıçıları, ədəbiyyatşünasları, tənqidçiləri və oxucuları dəvət edir. İlk əvvəl kitabxanaçı Ələmdar Quluzadənin yaradıcılığından söhbət açır, daha sonra isə kitabın icmalı haqqında oxucuları məlumatlandırır.

“Ürəyindən keçəydim” adlı kitabda Azərbaycan gözəllərinin sədaqətindən, ləyaqətindən bəhs edən poetik

nümunələr yer almışdır. Kitab İlham Rəhimlinin “Sevgisi sözündə çiçəklənən” adlı ön sözlə başlayır. Kitabda bir-birindən maraqlı şeirlər öz əksini tapmışdır. “Söz yiyəsi”, “Gözəlliyə əsir düşdüm”, “İllərin imtahanı”, “Həsrət elə sevgidir”, “Yurdu gəzib dolaşdıqca” və s. şeirlərini misal göstərmək olar. Şairin kitabda yer alan ”Mən şair olmuşam vaxtından qabaq” şeirini  təqdim edirik.

Sonra dada çatmır yüz haray, həşir
Taca əl uzatma taxtından qabaq.
Qızlar gözəlləşir, dünya gəncləşir,
Mən şair olmuşam vaxtından qabaq.

Qəsdimə durubdur bu insafsızlar,
Ürək sındırırlar, çiçək dərirlər.
Mənə şair kimi gül verən qızlar
Mənə əmi kimi yer göstərirlər.

Gümüşü saçlarım şoran düzlərdi,
Məni taplayıblar dagardan vallah.
Bu qara saçlardır, qara gözlərdi
Mənim saçlarımı ağardan vallah.

Şairin 2006-ci ildə nəşr olunmuş “Qadan mənə Qarabağ” adlı kitabında Qarabağ mövzusunda yazılan şeirlərlə yanaşı, müharibədən bəhs olunan beş poeması və qədim Şuşaya həsr olunan “Pənah evi” adlı mənzum pyesi də daxil edilib.

Şairin boya-başa çatdığı Xocalının ermənilər tərəfindən işğal edilməsi, uşaqdan böyüyə yüzlərlə dinc Xocalı sakininin vəhşicəsinə qətlə yetirilməsi onun qəlbində və qələmində ağrılı-acılı iz buraxıb.  Buna görə də müəllif bu mövzuda yazdığı əsərlərdə vətən oğullarını ayıq-sayıq

olmağa, dostu düşməndən seçməyə, torpaqlarımızın işğalı ilə barışmamağa, daim mübariz olmağa çağırır. Kitabda "Qanımla yazılan Qarabağnamə", "Eşqimsən gücüm olsa", "Dağlar, məni bağışlama", "Bilirsənmi?", "Bu baharın gəlişini görmədim", "Vətən bayrağı", "Qarabağ himni", "Dünyanın işi" və s. adlı şeirlər yer alır. Sadalanan bu şeirlər oxucuda vətənpərvərlik, anaya, millətə, xalqa məhəbbət hissi aşılayır. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Öncə qeyd etdiyimiz kimi, şair Ələmdar Quluzadə nəsr əsərləri də yazır. Onun 2008-ci ildə "Qürbətə düşən daş" adlı nağıllar kitabı yazıçının uşaqlar ən gözəl hədiyyəsidir. Kitabda 23 adda ("Nalbənd Nağı", "Balıqçı və söyüd", "Duz dağı", "Yalançı və tamahkar", "Kömürçüoğlu", "Kiçik qardaş", "Bənövşə", "Nökər alim", "Ceyran südü", "Papaqçı", "Xan, vəzir və keçəl", "Göyərçin") bir-birindən maraqlı və yaddaqalan nağıllar yer almışdır.

Ələmdar Quluzadə yaradıcılığının geniş təbliği üçün kitab icmalının keçirilməsi də məqsədəuyğundur. Tədbir Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Şirin Mirzəyevin və Vətən uğrunda mübarizədə şəhid olmuş digər igid döyüşçülərimizin əziz xatirəsinə həsr olunmuş "Alay komandiri" adlı kitabın icmalı ilə başlayır. Bu kitabda müəllif yaxından tanıdığı, döyüş bölgələrində dəfələrlə görüşdüyü, Vətənimizin müstəqilliyi və ərazi bötövlüyü uğrunda mübarizədə həlak olmuş Milli Qəhrəman Şirin Vəli oğlu Mirzəyevin mənalı həyatının, döyüş yolunun məyyən məqamlarını bədii lövhələrlə əks etdirib. Poemada müqəddəs əzəli və əbədi torpaqlarımız uğrunda ölüm-dirim müharibəsinə atılan oğullarımızla yanaşı, o zaman iqtidarda

olan bəzi yüksək rütbəli məmurların biganəliyi, laqeyidliyi və səriştəsizliyi də sərt və tünd boyalarla öz əksini tapıb.

Şairin yubileyi münasibətilə kitabxanada təşkil olunacaq tədbirlərdən biri də şeir müsabiqəsidir. Bu tədbiri oxucular daha çox sevir və maraq göstərirlər. Çünki bu tədbirdə oxucular şeiri intonasiya ilə deməklə yanaşı, onu qavramaq baxımından da çox sey öyrənmiş olurlar. Müsabiqənin şərtləri belədir ki, münsiflər oxucuları şeir demək bacarığına görə seçir və sonda onlara tutduqlari yerə görə diplom və hədiyyələr təqdim edirlər.

**"Hər sualın öz cavabı"** adlı tədbirə məktəblilər və müəllim heyyəti dəvət olunur.

Şairin vətənpərvərlik mövzusunda qələmə aldığı şeirlər xüsusilə təqdirəlayiqdir. Şeir müsabiqəsində bu mövzuda yazılmış "Alay komandiri", "Şəhid şəhər", "Qadan mənə Qarabağ", "Şəhidlər xiyabanı", "Şuşaya aparacaq", "Zəfər zənguləsi" və digər şeirlərdən istifadə etmək olar.

Oxucular səhnəyə daxil olur. Şairin **"Qadan mənə Qarabağ"** adlı şeirini söyləyirlər.

I oxucu:

Araz üstü bir zaman od tutub buz yanardı,
Səsini kökləyəndə tarında söz yanardı,
İçində qış donanda çölündə yaz yanardı.
Baş girlədik başina dönə-dönə Qarabağ,
***Qadan mənə, Qarabağ!***

Söz əlimdə açılıb dilimi güllələyir,
Əllərim yelpənəkdir, dizimi şillələyir,
Dərdim yetim quzudur, seygah üstdə mələyir.
Mələklər süd verməyir mələyənə Qarabağ
**Qadan mənə, Qarabağ!**

Oxucuları şairin yaradıcılığı ilə yaxından tanış etmək üçün kitabxanada ədəbi-bədii gecənin keçirilməsi daha vacibdir. Kitabxanaçı ədəbi-bədii gecəyə qabaqcadan hazırlaşmalıdır. Bunun üçün əvvəlcə tədbirin ssenarisi yazılır və tədbirdə iştirak edəcək qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə şairin şeirləri bədii qiraətlə deyilir, hekayə və poemalarından səhnəciklər göstərilir. Ədəbi-bədii gecədə şair və yazıçılar, ədəbiyyat müəllimləri iştirak edirlər.

"Ürəyi Qarabağ həsrəti ilə döyünən şair" adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk. Səhnədən Ələmdar Quluzadənin portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir.

Aparıcılar səhnəyə daxil olur.

**I aparıcı:** - Hörmətli tədbir iştirakçıları! Bu gün buraya istedadlı şair, publisist, hamımızın yaxşı tanıdığı Ələmdar Quluzadənin 65 illik yubileyini qeyd etmək üçün toplaşmışıq. Gəlin öncə sizinlə birlikdə Ələmdar Quluzadənin həyat və yaradıcılığına bir daha nəzər salaq.

Ələmdar Quluzadə 1952-c il yanvarın 7-də Əsgəran rayonunun Xocalı qəsəbəsində anadan olub. Orta məktəbi, sonra isə Azərbaycan Pedaqoji İnstititunun Xankəndi filialının Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib. Hərbi xidmətini başa vurduqdan sonra qəsəbə orta məktəbində və Xankəndi şəhərindəki Qarabağ İpək Kombinatının nəzdində olan 3 saylı fəhlə-gənclər məktəbində müəllim işləyib. Sonralar Xankəndi şəhərində DQMV Radio Verilişləri Komitəsində Azərbaycan verilişləri redaksiyasının xüsusi müxbiri (1977-1988), Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində radionun iqtisadiyyat və sosial həyat Baş redaksiyasının baş

redaktorunun müavini (1994-1996) olub. Hazırda radionun uşaq verilişləri Baş redaksiyasinin baş redaktorudur.

Bədii yaradıcılığa “Familiyanız” adlı şeiri ilə başlamış Ələmdar Quluzadə bir-birinin ardınca “Dağların yadigarı”, “Tumurcuqlar”, “Ömür-gün qabaqdadır”, “İsti ocaq”, “Beş qitənin uşaqları”, “Mənə söz verin”, “Məni yoldan eləmə” və s. kimi kitablar çap etdirmişdir.

Ələmdar Quluzadə xalqın sevimli sənətkarıdır. O, zamanın nəbzini tuta bilən, xalqın dərdinə, sevincinə şərik olan bir insandır. Onun əsərlərini təkcə kiçiklər deyil, həm də böyüklər sevə-sevə oxuyurlar.

Oxucular səhnəyə daxil olur və onlar şairin “**Uşaq şairləri uşaq kimidir”** adlı şeirini bədii qiraətlə söyləyirlər.

**I oxucu:** -Duzu sözündədir, qəndi dilində
Bütün sevincini uşaqla bölər.
Fağırının nədir, lap dəcəlin də
Xətrinə dəysəniz kövrələ bilər.
Uşaq şairləri uşaq kimidir.

Qədir də, qiymət də, baxt da baxtabaxt,
Uşağın könlünü sıxmayın, nolar.
Uşaq şairinin yanında heç vaxt
Uşağa uşaq tək baxmayın, nolar
Uşaq şairləri uşaq kimidir.

Başının üstündə kölgə görəndə
Şehli çiçək kimi gözün sıxmasın.
Uşağı aldadıb sevindirəndə
Uşaq şairləri yaddan çıxamsın
Uşaq şairləri uşaq kimidir.

**II oxucu:** - Dərdli uşaq görsə, o da qüssədə,
Ömrü neçə ömür daşıyır onun.
Saçı ağarsa da, əli əssə də
İçində bir uşaq yaşayır onun
Uşaq şairləri uşaq kimidir.

Dünya qollarının üstündə yatıb,
Desən ki, dil bilir kaman, inanır.
Uşağın başını nağılla qatıb
Özləri nağıla yaman inanır
Uşaq şairləri uşaq kimdir.

**II aparıcı:** - Ələmdar Quluzadə əsasən, ötən əsrin 70-ci illərində ədəbiyyata gəlmiş və qələminin gücü ilə söz sənətində özünəməxsus cığır açmışdır. Çünki gənc şair dərk edirdi ki, üslub insanın özüdür, təkrar olunmayan fərdiliyidir, başqalarına oxşamamasıdır, bənzərsizliyidir, öz sözü, öz səsi, öz nəfəsi ilə başqalarından fərqlənmək manerasıdır.

Oxucular səhnəyə daxil olur və **"60 yaşın nağılı"** adlı şeiri söyləyirlər.

**I oxucu: -** Günlər bərədədi, həftələr ovda,
Qazana cumuruq boş qaşıq kimi.
Payız qovhaqovda, qış qovhaqovda,
Yaş əldən sürüşür yaş balıq kimi.

Aldadıb alnıma yazdı altmışı,
Damı təpəsinə uça dünyanın.
Bizi qocaltmağa qarışıb başı,
Özü cavan qalıb qoca dünyanın.

Bağlar sovuşmaqda, bostan talanda,

Leylək lələk tökür, lək tapa bilmir.
Qara tellərimə qurban olan da
Başımda bir qara tük tapa bilmir.

**II oxucu: -** Hirsimi, hikkəmi töküb varağa,
Sözün təndirində kiprik ütmüşəm.
Ağa bələnmişəm başdan-ayağa,
Sanki 60 il dən üyütmüşəm.

Bu yaşın dərd adlı dəvələri var,
Xəlbir ələ gəlmir, ələyi tutur.
Könlümü alanın nəvələri var,
Gülümü alanın gülməyi tutur.

**I aparıcı: -** Şairin 70-80-ci illərdə qələmə aldığı "Gülsatan qarı", "Bölgü", "Könlüm yaman ərköyündür","El məni qınamasa...", "Laçının yollarında", "Gecələr uzun olur", "Sevdiyimi nə bilirsən?", "Qızlar məhəbbətdən şeir istəyir" və s. şeirlər müxtəlif mövzulara həsr olunmuşdur. Bu şeirlər yazılan zaman şair gəncliyini yaşasa da poetik təfəkkürü, poetik duyumu çox qabarıq nəzərə çarpır:

Nəğmə itirmişəm bir dodaq, bir dil,
Sözü bircə bənddi, ahı bir düzüm.
Onu haçan yazdım, yadımda deyil,
Harada itirdim, bilmirəm özüm.

**I aparıcı: -** Şairin püxtələşmiş dövründə çap etdirdiyi "Məni yoldan eləmə" kitabında emosional təsirli, aforizm mahiyyətli misralar çoxdur. Zamanın tələblərinə uyğun gələn bu şeirlərin hamısında misralardakı sərrast söz sıralanması, onun bədii hörgüsü, sözün dəyərinin uca tutulması, oxucuların qəlbini oxşayan tutumlu poetik ifadələrin əzəməti daha aydın görünür.

Oxucular səhnəyə daxil olur və **“Vətən eşqi”** adlı şeiri söyləyirlər.

**I oxucu: -** Qartal kimi millənərəm göylərə,
Lələyimdə Vətən eşqi görərsən.
Çəmən olub ayağını öpərəm,
Çiçəyimdə Vətən eşqi görərsən.

Tütəyimlə dağı-daşı dindirim,
Qılıncımı kəhər ata mindirim.
Mən yandıqca alovlanar təndirim,
Çörəyimdə Vətən eşqi görərsən.

Alın təri içirərəm bağlara,
Qoşa çiynim tağbənd olar tağlara.
Dayaq versəm kürəyimi dağlara,
Kürəyimdə Vətən eşqi görərsən.

Sinəm səngər, səngər mənim sipərim,
Tüfəng kimi tətikdədir təpərim.
Ayaqlansa, tapdalansa çəpərim,
Biləyimdə Vətən eşqi görərsən.

Dodağıma toxunanda şərbəti,
Bir-birinə qarışıbdır qürbəti.
Gözlərimdə tapa bilsən həsrəti,
Ürəyimdə Vətən eşqi görərsən.

Oxucular səhnəyə daxil olur və Ələmdar Quluzadənin “Papaqçı” adlı hekayəsindən bir parça göstərirlər.

**Aparıcı : -** Neçə qərinə bundan qabaq bir papaqçı vardı. Elin, obanın kişiləri gəlib ondan papaq alar, atasına rəhmət oxuyardılar. Günlərin bir günü düşmən hücum çəkib,

məmləkətin üstünə yeridi. Dəmirçilər qılınc döydü, nalbəndlər at nalladı, əli ilmə tutanlar çorab toxudular. Papaqçı da öz işində idi- gecə-gündüz papaq tikirdi. Döşü döyüş üçün atlanan kişilər də var idi, başını gizlətməyə yer gəzən başı papaqlı da. Bir gün papaqçı gördü ki, papaq alan kişilərin çoxu küncdə bucaqda baş girləyir, başını da, papağını da qoruyur. Fikirləşdi ki, papağı namus-qeyrət üçün tikirsə, onu başına qoyan yağı qabağından qaçmamalıdır. Bir gün bir kişi papaqçıya dedi ki, ona başı ölçüsündə mələməmiş quzunun dərisindən papaq versin.

**Papaqçı: -** Papaq sənin nəyinə lazımdır?

**Müştəri:** - Papaq kişinin nəyinə lazımdır? Xeyir işimiz var. Sağlığına toyda papağımın arxasın qaldırıb süzəcəyəm.

(Papaqçı müştərini qovur)

**Papaqçı:** - Mən papağı döyüşən kişilərə, vuruşan igidlərə, bəxşiş edirəm. Yurdumun başının üstünü düşmən qara bulud kimi kəsdirəndə ceyran balası kimi süzən “kişilərə” yox...

(Müştəri çıxıb gedir)

**Aparıcı:** - Papaqçı yerini təzəcə isitmişdi ki, üç oğlan dükana girib papaq istədi. Papaqçı onlara da eyni sualı verdi.

**Papaqçı:** - Papaq sənin nəyinə lazımdır?

**Cavanlar:** - Papaq kişinin nəyinə gərəkdir? Başımıza ləçək bağlayası deyilik ki?

**Papaqçı:** - Başına papaq qoyan yurdu qorumalıdır, qurşağa qılınc taxmalıdır, yəhəri atın belinə sıxmalıdır.

(Cavanlar gülüşdülər)

**Cavanlar:** - Baba, sənin nəyinə gərək papaq alanlar nə etməlidirlər? Niyə müştərini qaçırdırsan?

(Papaqçı əlini xəncərə atdı)

**Papaqçı:** - Baş özündən qiymətli papağı gəzdirə bilməz. Nə qədər ki, əlim namərd qanına batmayıb, rədd olun, burdan!

**Aparıcı:** - Cavanlar bir-birini itələyə-itələyə qapıdan çıxdılar. Hər yerə xəbər çatdı ki, papaqçı hər müştəriyə, hər yoldan ötənə papaq satmır. Müştərilərin çoxu papaqçıdan üç çevirdi. Bir gün qoca papaqçı dükanda oturmuşdu. İçəri bir oğlan girdi. Dərisi ütülmüş papağını başından çıxarıb təzə papaqlara baxdı.
**Oğlan:** - Döyüş papağı istəyirəm, baba!
**Aparıcı: -** Qoca papaqçı oğlanı bağrına basdı. Qılınc kəsməz, ox batmaz papaqlardan birini verdi oğlana.
**Papaqçı: -** Bəxşişdir.
**Oğlan:** - Dəmirçioğlu borclu qalmaz.
**Aparıcı: -** Atının belinə sıçradı. Məmləkətdəki kişilər, ərlər qeyrətə gəlmişdilər. Ərlər, ərənlər qoca papaqçıdan papaq almaq üçün onun qapısını kəsdirirdilər. Papaqçı gecə-gündüz işləyirdi. Bir gün məmləkətə xəbər yayıldı ki, papaqlı kişilər düşmənləri torpaqlarımızdan qovub çıxarıblar. Papaqçı ömründə ilk dəfə hönkür-hönkür ağladı.
**I oxucu: -** İstedadlı şair Ələmdar Quluzadə bu gün də yorulmadan işləyir, həm ümumi və həm də milli uşaq ədəbiyyatımızı öz yeni, orijinal əsərləri ilə zənginləşdirir. Uzun yaradıcılıq yolu keçməsinə baxmayaraq yorulmur, 65 yaşlı müdrik, həmişəcavan bir poeziya ustası kimi yeni-yeni uğurlar qazanır.

Fikrimizcə, 65 yaş şairin yetkin, müdrik çağıdır, onun daha dolğun obrazlar yaratması, yeni-yeni poetik sözlər sıralaması, hörgüləməsi vaxtıdır. Biz hələ bundan sonra da Ələmdar Quluzadədən oxucuları məftun edəcək yeni əsərlər gözləyirik.

Gözəl misraların əvəzolunmaz müəllifi, tanınmış şair Ələmdar Quluzadəyə bundan sonra da şövqlə yaratdığı təravətli poetik misralarının ölçüsü qədər uzun ömür diləyir, saysız-hesabsız müxtəlif janrlı əsərlər müəllifi olmağını

arzulayırıq! Uzaqlardan boylanan 70 illiyinə yeni-yeni orijinal əsərlərlə gəl, öz xalqını sevindir, sevimli şairimiz. Tədbir Ələmdar Quluzadənin **"Gəlin uşaqlara oxşayaq"** adlı şeiri ilə başa çatır.

Üfüqlər- səmada oyanan səhər,
Dan yeri- şəfəqə boyanan səhər.
Uşaqlar sabaha boylanan səhər
Gəlin uşaqlara oxşayaq bir az.

Günəş kainatın çıraq dünyası,
Çiçəklər, ləçəklər budaq dünyası.
Uşaqlar dünyanın uşaq dünyası
Gəlin uşaqlara oxşayaq bir az.

Gözəli köksümdə dil açan dilək,
Dəcəli sinəmdə döyünən ürək.
Gəlin uşaqlarla əl-ələ verək
Gəlin uşaqlara oxşayaq bir az.

Uşaq tək sevinək ocaq görəndə,
Qanadlı quş olaq budaq görəndə.
Harda olur-olsun, uşaq görəndə
Gəlin uşaqlara oxşayaq bir az.

Dodaqlar nəğmənin təzəsin deyə,
Gülüşlər dünyanı bəzəsin deyə,
Uşaqlar bizlərə bənzəsin deyə
Gəlin uşaqlara oxşayaq bir az.

## ƏDƏBİYYAT SİYAHISI

İnternetdə:
www. Google.az

Kitablar:


1. Quluzadə Ə. Dağların yaddaşı.-B.: Azərnəşr, 1976.-38 s.
2. Quluzadə Ə. Ömür gün qabaqdadır.-B.: Yazıçı, 1980.-83 s.
3. Quluzadə Ə. İsti ocaq.-B.: Yazıçı, 1985.-143 s.
4. Quluzadə Ə. Tumurcuqlar.-B.: Gənclik, 1985.-28 s.
5. 
6. Quluzadə Ə. Beş qitənin uşaqları.-B.: Gənclik, 1991.-96 s.
7. Quluzadə Ə. Qarabağ oyunu.-B.: Azərnəşr, 1993.-48 s.
8. Quluzadə Ə. Şəhid şəhər.-B.: Ozan, 1998.-67 s.
9. Quluzadə Ə. Alay komandiri.-B.:Ozan, 1999.-80 s.
10. Quluzadə Ə. Mənə söz verin.-B.: Ozan, 2001.-248 s.
11. Quluzadə Ə. Məhləmizin uşaqları.-B.: Şirvannəşr, 2004.-80 s
12. Quluzadə Ə. Məni yoldan eləmə.-B.: Ozan, 2005.-255 s.
13. Quluzadə Ə. Boğça.-B.: Ozan, 2007.-108 s.
14. Quluzadə Ə. Dilotu.-B.: Ozan, 2009.-80 s.
15. Quluzadə Ə. Ətirşah ətri. -B.: Ozan, 2010.-80 s.
16. Quluzadə Ə. Navalça.-B.: Şuşa nəşriyyatı, 2012.-80 s.
17. Quluzadə Ə. Bulaq suyu.-B.: Şuşa, 2013.-80 s.